## *TARİXİN TƏDRİSİ METODİKASI*

UOT 372.894(47)Az

***Lilpar Məzahir qızı Qasımova,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ŞAGİRDLƏRDƏ "AZƏRBAYCANIN ERKƏN ORTA ƏSRLƏR DÖVRÜNÜN TARİXİ ŞƏXSİYYƏTLƏRİ" HAQQINDA TƏSƏVVÜRLƏRİN FORMALAŞDIRILMASI

***Лилпар Мазахир гызы Гасымова,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ФОРМИРОВАНИЕ ПРЕДСТАВЛЕНИЙ У УЧАЩИХСЯ ОБ «ИСТОРИЧЕСКИХ ЛИЧНОСТЯХ ЭПОХИ РАННЕГО СРЕДНЕВЕКОВЬЯ АЗЕРБАЙДЖАНА»

***Lılpar Mazahır Gasımova,***
*Azerbaijan State Pedagogical University*

# FORMATION OF STUDENT'S IMAGINATIONS "HISTORICAL PERSONALITIES OF AZERBAIJAN IN THE EARLY MEDIEVAL PERIOD"

**Xülasə:** Məqalədə Azərbaycan tarixinin erkən orta əsrlər dövründə fəaliyyət göstərmiş tarixi şəxsiyyətlərin qiymətləndirilməsi məsələsinə toxunulmuşdur. Bununla yanaşı interaktiv təlimin bir sıra üsul və metodları tətbiq edilmiş, illüsturasiyalardan istifadə edərək, əyani təsvir əsasında şagirdlərdə tarixi şəxsiyyətlər haqqında ilkin təsəvvürlərin yaradılması prosesi öz əksini tapmışdır.
***Açar sözlər:*** *təlim prosesi, şagird, fəal dərs, tarixi şəxsiyyət*

**Резюме:** В статье затрагиваются вопросы деятельности исторических личностей периода Раннего Средневековья в истории Азербайджана. В работе были применены методы и приёмы интерактивного обучения. Пользуясь иллюстрациями, на основе наглядного описания, у учащихся формировалось первичное представление об исторических личностях и их деятельности.
***Ключевые слова:*** *процесс обучения, ученик, активный урок, историческая личность*

**Summary:** The article was touched on the issue assesment of historical personalities in the history of Azerbaijan in the early middle ages. In addition a number of methods and techniques of interactive teaching were used and the process of creating initial ideas about historical personalities in students on the basis of visual desprictions using illusturations was reflected.
***Key words:*** *learning process, students, history lesson, , historical personality*

*Cavanşir və Babək kimi sərkərdələrin qəhrəmanlıqları böyük vətənpərvərlik məktəbinə çevrilmiş, vətənin bütövlüyünün, xalqın birliyinin təcəssümü olmuşdur.*
***Heydər Əliyev***

Sivilizasiyanın əsas hərəkətverici qüvvələrindən biri tarixi şəxsiyyətdir. İxtiyari dövlətin, siyasi quruluşun idarə edilməsində tarixi şəxsiyyətlər aparıcı rola malikdir. Hər bir şagirdin təfəkküründə tarixi şəxsiyyət dedikdə fərqli təsəvvür canlana bilər. Bu səbəbdən ilk növbədə idarəedici tarixi şəxsiyyətlə, dövlətin həyatında bu və ya digər formada iştirak etmiş şəxsiyyəti fərqləndirmək lazımdır. Elmi işdə Azərbaycanın erkən orta əsrlər dövrünün şəxsiyyətləri təsvir olunduğundan, tarixi şəxsiyyət kimi Cavanşirin fəaliyyəti nümunəsində fikirlərimizi sübuta yetirəcəyik. Erkən orta əsr mənbələrində Cavanşir haqqında yetərincə məlumat vardır, lakin, orta məktəb şagirdlərinin fərdi və yaş xüsusiyyətləri nəzərə alınaraq dərslikdən kənara çıxılmamalı-

dır. Tədqiqatlar sübut edir ki, təlim prosesi hər bir şagirdin qabiliyyəti, fərdi xüsusiyyətləri nəzərə alınmaqla təşkil olunarsa, sinifdəki uşaqların 95 faizi təlim materialını tam mənimsəməyə qadirdir. Şagirdlərdə tarixi şəxsiyyət haqqında təsəvvür formalaşdırmağın mühüm əhəmiyyətləri vardır. Tarixi təsəvvürlərlə keçmişin qəhrəmanlıq surətləri çox vaxt şagirdlərin həyat ideallarının formalaşmasına, onun əxlaqına həlledici təsir göstərir. Belə halda tarixi təsəvvürlər gənclərin mənəvi-siyasi tərbiyəsinin güclü vasitəsi olur [3,s. 187]. Məktəblilərdə konkret tarixi təsəvvürlər müxtəlif metodlar, üsul və vasitələrdən istifadə etməklə formalaşır. Müəllimin canlı nitqi, tarix dərnəkləri, diyarşünaslıq və tədris ekskursiyaları, radio, televiziya, qəzet, jurnal, təsviri və maddi əyani vasitələr, icmal, ümumi, mövzu xəritələri, bədii ədəbiyyat və s. ümumi təsəvvürlərin yaradılmasında mühüm vasitələrdir. Lakin tarixi şəxsiyyəti təsvir edərkən tədris prosesində hansı metod və üsulları tətbiq edə bilərik onları nəzərdən keçirək. Beyin həmləsi, Venn diaqramı, əyani təsvir, müzakirə tarixi şəxsiyyət haqqında təsəvvür yaratmaq üçün ən əlverişli metod və texnikalar hesab olunur. Əqli hücum metodu öyrətmə prosesində hansı rola malikdir ona diqqət yetirək. Bu prosesin ən mühüm nailiyyətlərindən biri düşünmənin sərbəstliyi və müstəqilliyidir[4, s. 54]. VII sinfin Azərbaycan tarixi kursunda ***“****Ərəb işğalına qarşı mübarizə. Cavanşir****”*** mövzusunun beyin həmləsi üsulu ilə təlimi nümunəsinə diqqət yetirək.

***Mövzu*****:** Ərəb işğalına qarşı mübarizə. Cavanşir

**M*əqsəd:*** Cavanşir haqqında yazılı mənbələr üzərində işləyir. Cavanşiri digər tarixi şəxsiyyətlərlə oxşar və fərqli cəhətlərinə görə təhlil edir.

***Təlim forması:*** Qruplarla iş.

***Təlim üsulu*****:** Beyin həmləsi, müzakirə, Venn diaqramı.

***Resurslar*****:** Dərslik, iş vərəqləri, xəritə, paylama materialları.

***İnteqrasiya: Ö-t. 4.1.1.; Az-d. 1.2.2.***

***Tədqiqat sualı:*** Cavanşirin daxili və xarici siyasətinin istiqamətləri nədən ibarət idi? ***Motivasiya***

***Beyin həmləsi*****:** VII əsrdə Albaniya dövləti kimlərin hücumuna məruz qaldı. Sasani imperiyası vassalını qoruya bildimi? Belə bir vəziyyətdə Albaniya hökmdarı necə siyasət yeritdi?

***Cavablar*****:** VII əsrin 30-40-ci illərindən etibarən Azərbaycan Xilafət ordusunun yürüşlərinə məruz qaldı. VII əsrin 60-cı illərin əvvəlində Albaniya xəzərlərin hücumuna məruz qaldı. Cavanşir ağıllı və uzaqgörən siyasəti ilə ölkəsini Sasani, Bizans, Xəzər və Ərəb dövlətlərinin viranedici basqınlarından xilas etdi.

Fərziyyələr dinlənilir. Müəllim mövzunu şagirdlərə başa salır. Bundan sonra sinif qruplara bölünür.

Cavanşirin daxili siyasətini klaster üsulu ilə təhlil edin.

Cavanşirin xarici siyasətini klaster üsulu ilə təhlil edin.

***Təqdimat:*** Hər qrup öz işini təqdim edir və onu izah edir.

***İnformasiyanın müzakirəsi və təşkili:*** Bir qrup digərinin işinə öz münasibətini bildirir, suallar verir və əlavələr edir. Cavablar əsasında nəticələr çıxarılır.

***Nəticə:*** Cavanşirin daxili və xarici siyasəti nəticəsində:

Mərkəzi hakimiyyət möhkəmləndi.

Albaniyanın daxili sabitliyi qorunub saxlandı.

Ölkə Sasani, Bizans, Xəzər və Ərəblərin viranedici basqınlarından xilas oldu.

***Yaradıcı tətbiqetmə:*** Şagirdlərə Venn diaqramı vasitəsilə Cavanşir və Atropatın fəaliyyətini müqayisə etmək tapşırığı verilir.

***Qiymətləndirmə:*** Əməkdaşlıq, fikrin dəqiq ifadəsi, mənbə üzərində işləmə, təhliletmə, təqdimat meyarları əsasında beş ballıq sistemlə qiymətləndirilmə aparılır.

| I | II | III | IV |
|---|---|---|---|
| Yazılı mənbələrlə işləməkdə çətinlik çəkir. Oxşar və fərqli cəhətləri təhlil etməkdə | Yazılı mənbələrlə işləyərkən köməkdən istifadə edir. Oxşar və fərqli cəhətləri | Yazılı mənbələrlə işi sistemli aparmır. Oxşar və fərqli cəhətləri təhlil edir, lakin | Yazılı mənbələrlə işi sistemli aparır. Oxşar və fərqli cəhətləri Venn diaqramında tam təhlil edir. |

| | | | |
|---|---|---|---|
| çətinlik çəkir. | müəllimin köməyi ilə təhlil edir. | fikrini ifadə etməkdə çətinlik çəkir. | |

Tarixi şəxsiyyət haqqında təsəvvürlərin yaradılmasında vacib olan xüsusi texnikalardan biri Venn diaqramıdır. Kəsişən çevrələri istər elektron istərsə də, adi lövhədə tətbiq etmək mümkündür. Diaqramda müqayisə ediləcək şəxs və ya hadisələrin fərqli cəhətləri sağ və sol künclərdə ortaq cəhətlər isə kəsişən hissədə qeyd olunur. Venn diaqramında müqayisə ediləcək mövzuların tədrisi yekunlaşmış olmalıdır. Məsələn, şagird IX sinif Azərbaycan tarixini keçmədiyindən Pənahəli xan haqqında heç bir məlumatı yoxdur. Bu səbəbdən VI sinfin tədrisi yekunlaşdığından Cavanşiri, Atropatla müqayisə etmək olar.




Şagirdlərdə tarixi şəxsiyyət haqqında təsəvvür formalaşdırmaq üçün ən əlverişli metod əyani təsvirdir. "Şəkil ən zəruri əyani vasitələrdən biri olmaqla, tarixi materialın mənimsənilməsi prosesinin bütün mərhələlərində aktivləşdirici və konkretləşdirici vasitə qismində çıxış edir və eyni zamanda bütün didaktik məsələlərin ardıcıl həllinə xidmət edir. Tədris şəkilləri süjetin xarakterindən asılı olaraq hadisələrlə zəngin və tipoloji növlərə ayrılırlar [3, s. 284]. Tarixi şəxsiyyət haqqında təsəvvür formalaşdırılarkən tədris şəkillərinin portretlər növündən istifadə olunur. Portretlər ictimai qrup və sinif nümayəndələrinin, görkəmli tarixi xadimlərin obrazlarının formalaşdırılmasında böyük rol oynayırlar. Portretlə iş üsulları tarixi şəxsiyyətin xarakteristikası, onun həyat və fəaliyyəti barədə söhbətdir. Müəllim öz söhbətini şəkili dərsdə nümayiş etdirilən insanı şəxsən tanımış insanların xatirələrinə müraciətlə əvəzləyə bilər [3, 286]. "Ərəblərə qarşı mübarizə. Cavanşir" mövzusunda dərsin motivasiya mərhələsində elektron lövhədə yaxud tədris şəraiti əlverişli deyilsə hər bir şagirdə kağız form asında Cavanşirin portretini nümayiş etdirilir.



***Cavanşir döyüşdə***

İlk əvvəl şagirdlərdən şəklə diqqətlə baxılması tələb olunur. Bundan sonra müəllim şagirdlərin şəkil haqqında ilk təəssüratlarına qulaq asır. Fikirlərin dinlənilməsi başa çatdıqdan sonra müəllim Cavanşirin portretinin ünsürlərini açıqlayır. Bu məqamda dərsin emosianallığını artırmaq üçün dərslikdən bir hissəni şərh edir. "Musa Kalankatlı Cavanşir haqqında yazır: "O, bütün gecələri yuxusuz keçirir, vətənin xeyri barədə fikirləşirdi, Cavanşir paytaxt Bərdəni abadlaşdırdı, saraylar tikdirdi. Alimləri, şairləri, sənətkarları himayə etdi. O mərkəzi hakimiyyəti möhkəmləndirir, müstəqilliyə can atan iri feodal əyanlarına qarşı mübarizə aparırdı" [1, s. 15]. Şagirdlərin təfəkkürünün inkişafı məqsədilə tapşırıqlar verilir. Bu tapşırıqlar əsasında şagirdlərdə formalaşan bacarıqlar: illüstrasiya üzrə ümumi söhbət, rəsm üzrə təsviretmə, illüstrasiya üzrə şəxsiyyəti dəyərləndirmə [2, s. 38]. Müzakirə - seçilmiş mövzu və ya məsələ ətrafında ideyaların, məlumatların, təəssüratların, tənqidin və təkliflərin qarşılıqlı və struktur mübadiləsidir. Müzakirənin müxtəlif formaları var.

**Problemin elmi yeniliyi**: Müzakirə şagirdlərdə təhlil etmək bacarıqlarının, əməkdaşlıq, yoldaşlarını dinləmə mədəniyyətinin formalaşmasına yardım edir. Müzakirə əyani təsvir əsasında da aparıla bilər.

**Problemin praktik əhəmiyyəti**: Cavanşir haqqında fikir formalaşdırılarkən verilmiş mövzu üzrə fasiləli oxu üsulundan istifadə edərək şagirdlərdə tarixi şəxsiyyət haqqında təsəvvür yaratmaq mümkündür.

**Problemin aktuallığı**: Nəticə olaraq qeyd edə bilərik ki, hər bir dərsin səmərəliliyi, mənbənin düzgün istifadə qaydasından, metod, üsul və texnikaların doğru seçilməsindən, müəllimin tədris etmək bacarığından asılıdır. Mənbə sayı nə qədər çox olur olsun, təlim metodları yerində tətbiq edilməzsə fəal dərsin heç bir səmərəsi olmayacaqdır.

**Ədəbiyyat**

1. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan tarixi dərsliyi. Bakı: Təhsil, 2018, 131 s
2. Hüseynova L., Bəhrəmova S. Ümumtəhsil məktəblərinin 7-ci sinfi üçün Azərbaycan tarixi fənni üzrə dərsliyin metodik vəsaiti. Bakı;:Təhsil, 2018, 115 s.
3. Əmirov M., Tam orta məktəbdə tarixin fəal/interaktiv təlimi metodikası: Ali məktəblərin tarix fakültəsi tələbələri üçün dərs vəsaiti. Bakı, 2011, 707 s.
4. Veysova Z., "Fəal interaktiv təlim: Müəllimlər üçün vəsait. Bakı, 2007, 156 s.
5. İ. Həsənov, A. Rüstəmov, N. Babayeva. Kurikulum. Metodika. Pedaqogika" Bakı: Mücrü, 2020, 227 s.

**E- mail:lilparlilpar@gmail.com**

**Rəyçilər:** *ped ü elm.dok. prof.:* İ.H. Cəbrayılov
*ped. ü. fəls. dok.* T. İsayeva

**Redaksiyaya daxil olunub:**21.01.2021